Azərbaycan.-2025.- 2 iyul (№ 132).- S.4.

# Parlamentlərarası Forumun iştirakçıları Xivə şəhərində bir sıra tarixi-mədəni abidələrlə tanış olublar







Birinci Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumunun iştirakçıları Özbəkistanın Xivə şəhərində yerləşən bir sıra tarixi-mədəni abidələrlə tanış olublar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova, Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva və nümayəndə heyətlərinin üzvləri əvvəlcə Arda Xivə kompleksinə gəliblər. Burada qonaqlara məlumat verilib ki, 25 hektar ərazidə tikilmiş kompleks yaşıllıqların salındığı Govuk gölünün sahilində yerləşir.

Qonaqlar "Nurullaboy" saray kompleksi ilə də tanış olublar. Bildirilib ki, Xivə xanı II Məhəmməd-Rəhimbayanın əmri ilə 1906-1912-ci illərdə tikilmiş kompleks dörd hissədən ibarətdir ki, buraya ümumilikdə 100-dən çox zal və otaq, o cümlədən mərasim və məhkəmə zalları, yaşayış binaları və mədrəsə daxildir. Saray kompleksindəki bütün tikililər uzunluğu 650 metrdən çox olan güclü istehkamla əhatə edilib. Birinci Özbəkistan-Azərbaycan Parlamentlərarası Forumunun iştirakçıları daha sonra Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olublar. Burada qonaqlara bildirilib ki, İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi 1920-ci ildə yaradılıb. 1969-cu ildə tarixi İçan-Qala şəhəri muzey-qoruq elan edilib. Muzeyin fondunun əsasını xan dəftərxanasının sənədləri və sarayın müxtəlif əşyaları təşkil edir. Qeyd edilib ki, ümumi sahəsi 26 hektar olan muzeydəki ekspozisiyalar Özbəkistanın qədim tarixini və müasir dövrünü əlaqələndirir. Burada Xivə xanlığının, qədim Xarəzmin tarixinə, etnoqrafiyasına, sənət nümunələrinə dair müxtəlif kolleksiyalar ilə bağlı 14 stasionar muzey və ekspozisiyalar var.

*"Azərbaycan"*